# Qərbi Azərbaycanda 100 ildə azı 2 min türk toponim erməniləşdirilib...

***Nazir Əhmədli:*** *"O torpaqların ermənilərə aid olduğunu "sübut etmək" üçün Azərbaycan mənşəli toponimləri kütləvi olaraq saxtalaşdırıblar"*

**Toponimlər hər bir xalqın milli kimliyinə, milli indentikliyinə söykənən bir amildir. Azərbaycan türkləri tarixən yaşadıqları, sahib olduqları torpaqlarda özlərinin toponimlərini yaradıbdır. Qədim ərazilərimizdən olan Qərbi Azərbaycanda on minlərlə toponim olub ki, onlar birmənalı olaraq xalqımızın adı, tarixi ilə bağlıdır. Amma təəssüflər olsun ki, 100 ildən artıq bir dövr ərzində Azərbaycan mənşəli toponimlər erməni təcavüzünə məruz qalıb.**

*"Yalnız insanlar deyil, toponimlər də soyqırıma məruz qalıblar, bütün toponimlərimizə qarşı bu təcavüz, soyqırım edilib"*



Qeyd edilənə görə, Cəfər Qiyasi və İbrahim Bozyelin "Armenian acts of cultural terrorism" kitabında bildirilir: "Ermənilərin özləri keçən əsrin ortalarına kimi təsdiq edirdilər ki, ermənilər indiki Ermənistan ərazisinə köçürülmüş xalqdır və əvvəllər burada etnik xalq kimi Azərbaycanlılar yaşayırdılar. Təkcə XX əsrin əvvəllərində qərbi azərbaycanda (indiki Ermənistanda) 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəlli idilər".

Müəlliflər yazıblar ki, indiki Ermənistanda türk mənşəli toponimlərin dəyişdirilməsini aşağıdakı dövrlərə bölmək olar:

Bunlar XIX əsrin əvvəllərindən 1918-ci ilə qədər dəyişdirilən toponimlərdir ki, belə təsnifatlandırılır:

1918-1920
1920-1930
1930-1960
1960-1980

Bunlar ayrıca bir mərhələdir ki, əsasən Sovet dövrünə təsadüf edir. 1991-ci ildən sonra isə indiki Ermənistanda Azərbaycan toponimlərin adlarının dəyişdirilməsi daha geniş vüsət alıb.

Bu barədə bizim əksər tədqiqatçıların əsərlərində, internet resurslarında əks olunan araşdırmalarda geniş bəhs olunub.

İlk addəyişdirmə 1801-ci ildə baş vermişdir. Addəyişmənin I dövründə türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Bu da ərazinin Rusiya tərəfindən işğalı və oraya rusların kütləvi şəkildə köçürülməsi ilə bağlıdır.

"Ermənistanda türk toponimləri" adlı "Vikipediya" məqələsində (bu məqalədə müxtəlif tədqiqatçıların araşdırmalarından istifadə olunub-İ.S) qeyd edilir ki, ilk dəyişdirilən ad Cəlaloğlu rayonundakı (Stepanovan rayonu) Qaraməhəmməd kəndinin adının dəyişdirilib Aleksandrovka qoyulması ilə başlayıb. Bildirilib ki, tariximizin 1918-20-ci illərə aid səhifələri xalqımızın başına gətirilən erməni müsibəti, erməni genosidi ilə bütün dünyaya məlumdur. Bakıda, Şamaxıda, Qubada, Naxçıvanda, indiki Ermənistanda Şaumyanların, Lalayanların başçılığı ilə minlərlə azərbaycanlı qətlə yetirildi. Onlar xalqımızı soyqırıma məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yamdırmaqla və yenidən addəyişməni davam etdirməklə mənəvi soyqırımı da davam etdirdilər. 1918-1920-ci illərdə dəyişdirilən indiki Ermənistan ərazisindəki türk mənşəli adlar:Molla Dursun - Şaumyan (Eçmiədzin) Yuxarı Ağdam - Qanzakar (İcevan) Tamamlı - Burastan (Artaşat) və s.

Qeyd edilənə görə, Ermənistan SSR-də toponimlərin dəyişdirilməsi prosesi o dövrdə SSRİ imperiyasında baş verən daxili siyasi proseslərlə sıx əlaqəli idi. Məlumatda vurğulanır ki, 1924-1930 illər ərzində Ermənistanda 80 toponim dəyişdirilmişdir. Toponimlərin dəyişdirilməsinə səbəb kimi 3 yanvar 1935-ci ildə Ermənistan SSR-nin rəsmi qərarı göstərilirdi. Rəsmi qərarda deyilirdi ki, Ermənistandakı yer adları dini məna daşıdığı, keçmişin feodal ünsürlərini özündə əks etdirdiyinə görə dəyişdirilməlidir. Əsl səbəb isə gizlədilirdi. Bu gün hər kəsə aydındır ki, Ermənistandakı Türk toponimlərinin dəyişdirilməsinə əsas səbəb bu adların Türk mənşəli olmasıdır və bu da indiki Ermənistanda etnik əhalinin azərbaycanlılar olduğunu sübut edən əsas dəlildir. Ermənistanda toponimlərin çoxu iki və ya daha artıq ərazidə təkrarlanırdılar. Toponimlərin dəyişdirilməsi prosesi II Dünya müharibəsindən sonra (1946-1950) daha da sürətləndi. Buna əsas səbəb 1946-1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçən ermənilərin sayının artması idi. Bu illər ərzində təqribən 90 000 erməni Qərbi Azərbaycana köçürülüb. Toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi çəkildə deportasiyası idi. SSRİ Nazirlər Şurasının 10 mart 1948-ci ildə təsdiq etdiyi № 745 nömrəli qərarında azərbaycanlıların ermənistan SSR-dan Azərbaycanın Kür-Araz ərazisinə köçürülməsi göstərilirdi... Bu qərara əsasən 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə 50 000 azərbaycanlı ermənistandan köçürüldü. 1930-60-cı illərdə dəyişdirilən toponimlər; Addəyişmə 1935-ci ildə müvəqqəti təxirə salınıb. Lakin 1935-ci il yanvarın 3-dən isə bu iş yenidən başlamış və Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyəti ilk fərmanı imzalamışdır və ilk fərmanla 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırım qurbanı olub.

Qızıl kilsə - Karmiravan (Qukasyan)

Böyük kəpənək - Musaelyan (Axuryan)

Künən - Getaşen (İcevan)

Boğaz kəsən - Dzorakan (Ani)

İtquan - Gülüstan (Əzizbəyov) və s.

Məqalədə əks olunan faktlardan da aydın görsənir ki, ermənilər bizim toponimlərə kütləvi şəkildə təcavüz ediblər. Ümumiyyətlə, son yüz ildə saysız Azərbaycan mənşəli toponimlərin erməniləşdirildiyi ortadaddır. Bu məqalədə tutaq ki, şərti olaraq 2 min toponimdən danışılır, halbuki o toponimlərin sayı yüzlərlədir...

Tədqiqatçı alim Nazir Əhmədli bizimlə söhbətində bildirdi ki, Qərbi Azərbaycanda erməni təcavüzünə məruz qalan toponimlər çoxdur. Onlar barədə müxtəlif tədqiqatçıların əsərlərində, o cümlədən də Yasin Azərtürkün aidiyyatı tədqiqatlarında bəhs olunur. Azərbaycan türk mənşəli toponimlərin sayının saysız olduğuna diqqət çəkən alim qeyd etdi ki, ermənilərin əsas məqsədi özlərini "yerli xalq" kimi göstərmək olub. Halbuki, Qərbi Azərbaycanda saysız toponimlər olub ki, onlar sonradan saxtalaşdırılıb deyən alim bildirdi ki, ermənilərin bu əməlləri cinayətdir. "Əsas səbəb ermənilər özlərini buranın "yerli əhali"si kimi qələmə vermək istəyi ilə bağlıdır. Buna görə də, Azərbaycan-türk mənşəli toponimləri saxtalaşdırmağa başladılar. Onlar iddia edirlər ki, guya orada "Böyük Ermənistan" "dövləti" olub, bura da oranın "ərazisidir". Halbuki ruslar bizim torpaqlarda ermənilər üçün dövlət yaratdılar və bu proseslərdən əsasən inqilabdan sonra baş verib. Yəni Azərbaycan mənşəli toponimlərin kütləvi dəyişdirilməsi prosesinə ermənilər keçən əsrin 30-cu illərindən başlayıblar və 60-cı illərdə bunu daha "yüksək həddə" çatdırıblar. Guya bunlar burada qədimdən yaşayırlar, bura "qədim erməni torpağıdır". Çar Rusiyası dövründə toponimləri elə də çox dəyişmirdilər. Qərbi Azərbaycandakı türk mənşəli toponimlərin dəyişdirilərək erməniləşdirilməsi prosesi əsasən Sovet dövründə həyata keçirilib.Bu da toponimlərimizə qarşı təcüvüz və qəsddir, onları xüsusi olaraq erməniləşdirməklə tariximizə zərbə vurmağa çalışıblar. Yalnız insanlar deyil, toponimlər də soyqırıma məruz qalıblar, bütün toponimlərimizə qarşı bu təcavüz, soyqırım edilib".

Arxivlərdə Qərbi Azərbaycan ərazilərinin müfəssəl dəftəri, kameral təsvirlər üzərində işləyərkən N.Əhmədli bir sıra təkzibolunmaz faktlarla üzləşib ki, onlar ermənilərə tutarlı cavab ola bilər. O, qeyd etdi ki, arxiv sənədlərində Qərbi Azərbaycanın əraziləri, mahalları, yaşayış məskənləri, insanaları, milli tərkibi və s məlumatlar var və bunlar hamısı ermənilərin bura sonradan gəlmə olduğunu təsdiqləyir. "Bunlar hamısı bizim torpaqlardır. 1831-ci ildə tərtib edilmiş kameral təsvirlər var. Deməli, Rusiya işğalından 3 il sonra 1828-ci ildə Türkmənçay müqaviləsi imzalandı. Bu müqavilə fevraın 10-da imzalandı, həmin ilin yayından başlayaraq İrandan, Türkiyədən ermənilər indiki Ermənistan ərazisinə köçürməyə başlayıblar. Yəni o vaxta qədər bu ərazidə əhalinin 80 faizə yaxını türk-müsəlman, 20-30 faizi erməni idi. Kameral təsvirlər elə bil ki, əhalinin pasportudur, kupça sənədidir. Məsələn, Göyçə mahalı üzrə kameral təsvirdən aydın olur ki, 1831-ci ildə Göyçədə 999 müsəlman, cəmi 15 erməni ailəsi varmış. Amma Bəyazid paşalığından 1485 erməni ailəsini ora gətiriblər və orada etnik balansı öz xeyrlərinə dəyişiblər. Mənim doğulduğum Dərələyəz mahalında 1001 müsəlman, 58 erməni ailəsi olub. Orada 515 ailə İrandan köçürüb gətiriblər, amma yenə də etnik balansı dəyişə bilməyiblər, əhalinin 60-65 faizi müsəlman olub. Bilirsiz ki, Sovet hökuməti dövründə də Suriyadan, Livandan erməniləri köçürüb gətirdilər. Kameral təsvirlər sübut edir ki, bu ərazilərn hamısı türk torpaqlarıdır. Orada yaşayan insanların adbaad siyahısından da görünür ki, hamısı müsəlmandır, türkdür. Orada ermənilər çox cüzi sayda yaşayıb. Amma sonradan köçürülmə nəticəsində onların sayı süni şəkildə çoxalıb, onlar etnik balansı dəyişiblər".

**Bizim torpaqlarda yaradılan Ermənistan dövləti də özünə "haqq qazandırmaq" üçün bu saxtalaşdırma kampaniyasını daha da sürətləndirib. O torpaqların ermənilərə aid olduğunu "sübut etmək" üçün Azərbaycan mənşəli toponimləri kütləvi olaraq saxtalaşdırıblar" - deyə bildirən N.Əhmədli qeyd etdi ki, o toponimlərin sayı, tarixi adları, onlar barədə bütün məlumatlar tədqiqatçılarımız tərəfindən araşdırılıb, öyrənilib, kitablarda əksini tapıb. Alim hesab edir ki, bizim əlimizə ermənilərə qarşı kifayət qədər arqumentlər var və onlar ermənilərin cinayətkar əməllərini ifşa edir.**

*İradə SARIYEVA*